*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 27-33* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.2.27*

# XX əsrin 60-90-cı illər Lənkəran ədəbi mühitinin görkəmli nümayəndəsi Mirhaşım Talışlı

**Xalidə Rəhimova**
Dissertant
Lənkəran Dövlət Universiteti
E-mail: xalidavaqifqizi@mail.ru

**Annotasiya.** XX əsrin 60-90-cı illərindəki Lənkəran ədəbi mühitinin formalaşmasında mühüm xidmətləri olan şəxsiyyətlərdən biri də Mirhaşım Talışlıdır. Əməkdar müəllim, Azərbaycan Respublikası Prezidentinin fəxri təqaüdçüsü, filologiya üzrə fəlsəfə doktoru, dosent Mirhaşım müəllim ensiklopedik təfəkkürlü ziyalı, gözəl pedaqoq, şair, alim, klassik Azərbaycan ədəbiyyatının bilicilərindən biri olmuşdur. Elmi-pedaqoji fəaliyyəti ilə ədəbi yaradıcılığını məharətlə əlaqələndirməyi bacaran M.Talışlı çox zəngin ədəbi-elmi irsə malikdir. Klassik və müasir Azərbaycan yazıçılarının bir çoxu haqqında dəyərli elmi əsərlərin, XIX əsr Lənkəran ədəbi mühitindən bəhs edən qiymətli monoqrafiyanın müəllifi olan M.Talışlı xeyli sayda publisistik məqalələrin, əruz və heca vəznində yazılan şeirlərin, eyni zamanda Lənkəranın tarixi və oradakı pedaqoji fikir barədə kitabların da müəllifidir. O, hər şeydən əvvəl, klassik ədəbiyyatı bilən, keçmiş və müasir Lənkəran ədəbi mühitinə kifayət qədər bələd olan ədəbiyyatşünas alimdir. Mirhaşım Talışlı ömrünün təxminən altmış ilini xalqının maarif və mədəniyyətinin təbliğinə həsr etmiş, işıqlı xatirəsi əbədi olaraq onu tanıyanların yaddaşına həkk olunmuşdur.
**Açar sözlər:** ədəbi mühit, şəxsiyyət, klassik irs, tədqiqatçı, elmi-pedaqoji fəaliyyət

**Məqalə tarixçəsi:** göndərilib – 23.09.2024; qəbul edilib – 09.10.2024

# A prominent representative of the Lankaran literary environment in the 60s-90s of the 20th century – Mirhashim Talishli

**Khalida Rahimova**
Dissertation Student
Lankaran State University
E-mail: xalidavaqifqizi@mail.ru

**Abstract.** Mirhashim Talishli is one of the personalities who had important services in the formation of the Lankaran literary environment in the 60s-90s of the 20th century. Honored teacher, honorary scholar of the President of the Republic of Azerbaijan, doctor of philosophy in philology, associate professor Mirhashim was an intellectual with an encyclopedic mindset, a wonderful teacher, a poet, a scientist, a connoisseur of classical Azerbaijani literature. M.Talishli who is capable to link skillfully the scientific – pedagogical activities with his literary activities, owns very rich literal and scientific heritage. M.Talishli, who is the author of valuable works about many classical and modern Azerbaijani writers, a valuable monograph about the literary environment of

Lankaran in the 19th century, is the author of a large number of publicist articles, poems written in aruz and syllabary, as well as books on the history of Lankaran and its pedagogical ideas. He is, first of all, a scholar of literature who knows classical literature and is quite familiar with the past and present Lankaran literary environment. Having a deep encyclopedic knowledge, Mirhashim Talishli devoted nearly sixty years of his long life to the promotion of the education and culture of his people, and his bright memory is forever etched in the memory of those who knew him.
**Keywords:** literary environment, personality, classical heritage, researcher, scientific-pedagogical activity

**Article history:** received – 23.09.2024; accepted − 09.10.2024

## Giriş / *Introduction*

Mirhaşım Mirmurtuza oğlu Talışlı 21 mart 1926-cı ildə Lənkəran şəhərində ziyalı ailəsində anadan olmuşdur. Lənkəran xanlarının nəslindən olan atası Mirmurtuza Talışlı hələ 1915-ci ildə Lənkəranda nəşr olunan "Lətaif" ("Lətifələr") qəzetinin redaktoru olmuş, uzun müddət ümumtəhsil məktəblərində dərs demişdir" [1, s.3].

Orta təhsilini doğulduğu şəhərin 3 N-li orta məktəbində alan (1932-1942) M.Talışlı bir il şəhərdəki 3 nömrəli uşaq evində tərbiyəçi-müəllim vəzifəsində çalışdıqdan sonra Lənkəran Pedaqoji Texnikumuna qəbul olunmuş, texnikumu fərqlənmə diplomu ilə bitirdikdən sonra 1947-1949-cu illərdə keçmiş Astarxanbazar, indiki Cəlilabad rayonunun Ləkin kənd məktəbində müəllim işləmişdir.

1949-cu ilin sentyabrında Lənkərana qayıdan, vaxtilə şagirdi olduğu 3 N-li orta məktəbdə pedaqoji fəaliyyətə başlayan Mirhaşım müəllim, eyni zamanda yerli "Sosialist suptropikası" qəzeti ilə əməkdaşlıq etmiş, radio verilişlərində ədəbi işçi kimi fəaliyyət göstərmişdir [2, s.25-26].

İndiki Azərbaycan Dövlət Xarici Dillər Universitetində ingilis dili, Azərbaycan Dövlət Universitetində filologiya üzrə ali təhsil alan Mirhaşım müəllim 1987-ci ilə qədər Lənkəranın müxtəlif məktəblərində dərs demiş, 1987-1993-cü illərdə Azərbaycan Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunun Lənkəran filialında metodist və humanitar fənlər kabinetinin müdiri vəzifəsində çalışmışdır.

Mirhaşım Talışlının pedaqoji sahədəki əməyi dövlət tərəfindən yüksək dəyərləndirilmişdir. "1970-ci ildə "Əmək rəşadətinə görə" medalı və "Azərbaycan SSR-in Qabaqcıl Maarif xadimi" adı ilə təltif olunan Mirhaşım Talışlıya 1979-cu ildə "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adı verilmişdir" [2, s.79].

1993-1995-ci illərdə Lənkəran Hirkan Özəl Universitetində baş müəllim işləyən Mirhaşım Talışlı, 1996-2012-ci illərdə Lənkəran Dövlət Universitetində baş müəllim, kafedra müdiri vəzifələrində çalışmış, 1998-ci ildə "XIX əsr Lənkəran ədəbi mühiti" mövzusunda filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmiş və 2005-ci ildə ona AAK tərəfindən dosent elmi adı verilmişdir.

Prezident İlham Əliyevin 14 avqust 2006-cı il tarixli Sərəncamına əsasən Prezidentin fərdi təqaüdü ilə mükafatlandırılan respublikanın əməkdar müəllimi Mirhaşım Talışlı 6 aprel 2018-ci ildə vəfat etmiş, doğulduğu Lənkəran şəhərində dəfn edilmişdir.

**Əsas hissə / *Main Part***

Mirhaşım Talışlı XX əsrin 60-cı illərindən başlayaraq, Lənkəran ziyalıları içərisində maarifçilik ideyalarının yayılmasında mühüm xidmətlər göstərməklə yanaşı, ədəbi-mədəni mühitin inkişaf etdirilməsində də əhəmiyyətli rol oynamışdır.

M.Talışlının 1958-1990-cı illər arasında Bakıda, müxtəlif mətbuat orqanlarında dərc olunan əsərlərini nəzərdən keçirəndə aydın şəkildə görürük ki, o daha çox ədəbiyyatşünaslıq məsələləri ilə məşğul olmuş, sonralar filologiya elmləri namizədi (indiki filologiya üzrə fəlsəfə doktoru – X.R.) elmi dərəcəsi almaq üçün müdafiə etdiyi "XIX əsr Lənkəran ədəbi mühiti" dissertasiyası üçün bir növ zəmin hazırlamışdır.

Bu illər ərzində dərc etdirdiyi məqalələr bir məsələni də açıq şəkildə deməyə əsas verir ki, Mirhaşım müəllim zəngin mütaliə dairəsinə malik olmaqla yanaşı, həm ərəb qrafikalı əlyazma mətnlərini oxumağın mahir bilicisi, həm də xarici dillər sahəsində də (xüsusilə fars və ərəb dilləri) kifayət qədər savada malik olmuşdur. Onun "M.Füzuli və ərəb Şərqi" "S.Ə.Şirvaninin müasiri Qasir", "Füzulini öyrənərkən", "Mirzə İsmayıl Qasir", "Mirzə Rəcəb Vəssaf və onun "Əxlaqnamə" əsəri", "Usta Məhəmmədhəsən Nəccar", "Mirzə İsa Xəyali: ziyalı, sərraf və ya arif", "Mirzə Məhəmməd Mücrim", "Unudulmaz şəxsiyyət" və s. bu kimi əsərləri dediklərimizi əyani şəkildə sübut edir.

M.Talışlı yuxarıda adlarını qeyd etdiyimiz məqalələrində daha çox ədəbiyyat tarixçisi kimi çıxş edirdisə, digər məqalələrində tədris və dil məsələləri, xüsusilə Lənkəran şivəsinin özünəxas cəhətləri ilə məşğul olurdu ki, bunlara müəllifin aşağıdakı yazılarını misal göstərmək olar: "Lənkəran şivəsində toponomik adlar", "Lənkəran şivəsində saitlərin əvəzlənməsinə dair", "Yazı təlimində şagirdlərə özünənəzarət vərdişlərinin aşılanması", "Lənkəran şivələri qrupunda mənsubiyyət kateqoriyasının istifadəsinə dair", "Şagirdlərdə sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkili" və s.

M.Talışlı "Teymur bəy Bayraməlibəyov tanınmış maarif xadimi kimi" adlı çox dəyərli məqaləsində Teymur bəy Bayraməlibəyovun maarifçilik görüşlərindən bəhs edib onu bir jurnalist, folklorşünas alim kimi araşdırırsa, "Səidəli Kazım bəy oğlu" adlı məqaləsində zəmanəsinin tanınmış ziyalılarından biri, şair, tarixçi, "Cəvahirnaməyi-Lənkəran" əsərinin müəllifi haqqında arxiv materiallarına əsaslanaraq məlumat verir.

Müəllifin "Mirzə Əhməd Sadıqov" adlı məqaləsində XIX əsrin sonu, XX əsrin əvvəllərində Lənkəranın tərəqqipərvər ziyalılarından olan, 1907-ci ildə Lənkəranda açılmış "Behcət" məktəbi üçün fars dilində dərslik yazan, eyni zamanda tibbə dair iki əlyazma kitabının müəllifi olan Mirzə Əhməd Sadıqovu oxuculara və geniş ictimaiyyətə tanıtdıran [8, s.230-236] Mirhaşım Talışlı "Fövcül-füsəha"nın şahmatçıları" məqaləsində XIX əsrin ikinci yarısında Lənkəranda yaşayan şahmatçılar haqqında bilgilər verir.

Mirhaşım Talışlının bir tədqiqatçı olaraq digər özəl xüsusiyyətlərindən biri də odur ki, o, Lənkəran haqqında deyilən, yazılan, əlinə keçən bütün materiallara böyük diqqət və qayğı ilə yanaşır, bu torpağın adını daima ucalara qaldırmağa çalışır. Bu cəhətləri biz onun Mirzə İsmayıl Qasirə həsr etdiyi "Şirvandan Lənkərana", böyük bəstəkar, müəllim Müslüm Maqomayevdən bəhs edən "Müslüm Moqamayev Lənkəranda", Lənkəranlı "Molla Nəsrəddinçi"lər haqqında bilgilər verilən "Molla Nəsrəddinçilər", "Əliağa Vahid və Lənkəran" və s. məqalələrində aydın şəkildə görürük.

Mirhaşım Talışlı təkcə ədəbi, elmi-filoloji əsərlərin müəllifi deyil, pedaqoji və soraq – məlumat kitablarının da müəllifidir. Onun müstəqillik dövrümüzə qədər, 1983-cü ildə çap olunmuş "125 yaşlı Lənkəran məktəbi" kitabında 1856-cı ildə Lənkəranda fəaliyyət göstərməyə başlamış və dərslərin əsasən rus dilində keçirildiyi ilk dünyəvi məktəbin yaranması, inkişaf tarixi, bölgənin maarif sistemində oynadığı mütərəqqi rolundan bəhs olunur.

Müəllifin kimyaçı alim, dosent Böyükağa Hüseynbala oğlu Həsənovla birgə yazdıqları 512 səhifəlik "Lənkəran" kitabı Lənkəranın tarixi, coğrafiyası, elmi-mədəni mühiti, iqtisadiyyatı, şəxsiyyətləri və s. bu kimi mövzları əhatə edən fundamental elmi-kütləvi kitabdır.

Mirhaşım Talışlının keçən əsrin 90-cı illərinə qədər Azərbaycan ədəbiyyatının ayrı-ayrı klassikləri və müasir Lənkəran şair və yazıçıları haqqında yazdığı əsərlər ən əvvəl faktların yeniliyi və nəzəri bazası baxımından diqqəti cəlb edir. Əvvəlki səhifələrdə bu əsərlərdən bəzilərinin adını çəkdiyimizdən, işin həcmini nəzərə alaraq biz burada onun yalnız bir əsəri, "XIX əsr Lənkəran ədəbi mühiti" monoqrafiyası üzərində bir qədər ətraflı dayanmağı məqsədəuyğun hesab edirik.

Monoqrafiya üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsil "XIX əsrdə Lənkəranda ictimai-ədəbi mühit" adlanır və müxtəlif başlıqlara ayrılmışdır. Giriş xarakteri daşıyan ilk səhifələrdə Lənkəran şəhərinin tarixi abidələri, görkəmli zilalıları, sənətkarları haqqında ümumi məlumat verən müəllif "Yenilikçilər və yeni məktəblər" yarımbaşlığındakı yazılarda XIX əsrdə Lənkəranda təhsil sahəsində gedən islahatlardan, 20 fevral 1856-cı ildə Lənkəran şəhərində, Hacı Nəsirin mülkündə IX sinif həcmində bir məktəbin açılmasından, dərs proqramından və müəllim heyətindən bəhs edir. Məktəbdə Çerepov adlı başqa millətlərdən olan bir müəllimlə yanaşı, yerli ziyalılardan Axund Molla Mirzə Əli Əlimirzə oğlu, Mirzə Səidəli Kazımbəyov, Mirzə Nəsrulla Səidəli oğlunun da işləməsini qeyd edir.

Əsrin 70-ci illərindən başlayaraq, Lənkəranda azərbaycanlılar arasında "Üsuli-cədid" (yeni üsullu) məktəblərinin nüfuz dairəsinin genişləndiyini bildirən müəllif yazır: "Çünki həmin məktəblərdə təlimin məzmun və metodlarını dəyişdirməyə cəhd göstərilirdi. Belə məktəblərin tərəfdarları tədris proqramına ümumtəhsil fənlərinin, o cümlədən ana dili və rus dilinin daxil edilməsini təklif edirdilər" [8, s.23].

Mirzə İsmayıl Qasirin Ağdaşdan Lənkərana gəlib burada məskunlaşmasını, Mirzə Sadıq bəy Mehmandarovun maddi yardımı ilə "Üsuli-cədid" məktəbi açıb səmərəli pedaqoji fəaliyyətlə məşğul olduğunu bildirən müəllif yerli ziyalılardan Mirzə Əziz Əli oğlu Əliyevin məktəbdarlıq fəaliyyətindən və onun akademik B.Millerlə dostluq əlaqəsi saxlamasından da danışaraq yazır: "Əlimizdə olan 27 dekabr 1925-ci il tarixli farsca yazdığı bir məktubda B.Millerin Mirzə Əzizin oğlu məşhur müəllim Mirzağalı Əliyevlə də dostluğu davam etdirdiyini yəqin etmək olar" [8, s.24].

Fəslin "Şairlər məclisinin yaranması", "Lənkəranda şairlər məclisini yetişdirən ictimai-ədəbi mühit", "Lənkəran ədəbi mühitində klassik şeir ənənələri" yarımbaşlıqlarında "Fövcül-füsəha" ədəbi məclisinin yaranmasını zəruri edən faktlar araşdırılır və ədəbiyyatşünaslıqda bu problemlə yazılanlara münasibət bildirilir [8, s.30-51].

Monoqrafiyanın "Fövcül-füsəha" ədəbi məclisi və onun üzvləri" adlı ikinci fəslində ədəbi məclisin tarixinə, onun üzvlərinin kimliyinə və s. bu kimi məsələlərə aydınlıq gətirən müəllif belə hesab edir ki, bu ədəbi məclis M.İ.Qasir Lənkərana gəlməzdən əvvəl qurulmuşdur. O, Lənkəranda məskunlaşandan sonra ədəbi məclisə rəhbərlik etmişdir. Müəllifin fikrincə, "Fövcül-füsəha" ədəbi məclisinin məşqləri əsasən Lənkəranda Usta Hüseynqulu Şurinin və tanınmış ruhani Molla Möhsünün evində keçirilərdi".

M.Talışlı yazır ki, məclisin füsəha (fəsih danışanlar – natiqlər) və şüəradan (şairlərdən) ibarət qırxa qədər iştirakçısı olmuşdur. Müəllif "Füsəhalar" cərgəsinə birincisi Mirzə Sadıq bəy Mehmandarov, sonuncusu Mirzə İbrahim bəy Talışınski olmaqla on dörd nəfərin adını daxil edir və onlar haqqında qısa məlumat verir.

Əsərin şairlərdən ibarət olan yarımbaşlığındakı materiallar daha geniş və əhatəlidir. Bu bölmədə Mirzə İsmayıl Qasir, Molla Fəttah Səhban, Mirzə Ələkbər Aciz, Mirzə İsa Xəyali haqqında nisbətən geniş və əhatəli, Mirzə Əhməd Mirzə, Mirzə Hüseyn oğlu Kəmin, Mirzə Əziz Molla Əli oğlu Əliyev, Usta Məhəmmədhəsən Rəhim oğlu Nəccar, Molla Məhəmməd Hacı Əli oğlu Mücrim, Mirzə Rəcəb Kərbəlayi Kazım oğlu Vəssaf, Mirzə Ələkbər Mirzə Əliqulu oğlu Səburi, Mirzə

Ələkbər Ələsgər oğlu Mehəqqər, Usta Hüseynqulu Allahverdi oğlu Dübəndidüz Şuri haqqında qısa, yığcam məlumat verilmişdir.

Tədqiqatçı "Dini-fəlsəfi mövzuda yazılmış əsərlər (tövhid, mərsiyə, qəsidə və s.)" yarımbaşlığında həmin janrlarda yazılan əsərlərin mövzu və problematikası, forma xüsusiyyətləri barədə fikirlərini şərh edir. Müəllif doğru olaraq belə bir tezis irəli sürür ki, "mərsiyə, növhə və sinəzən yazanlar heç kimdən şəxsi təmənna gözləməmişlər. Onların mükafatı ancaq mənəvi mükafat – Allahdan əcr və savab gözləmək olmuşdur" [8, s.103].

Usta Məhəmməd Nəccarın, Mirzə İsa Xəyalinin, Mirzə İsmayıl Qasirin, Molla Məhəmməd Mücrimin haqqında söhbət gedən mövzuda yazılan bir neçə əsərini təhlil edən müəllif yekun olaraq qeyd edir ki: "Bir qayda olaraq, istər mərsiyə yazan şairlər, istər mərsiyəxanlar və istərsə də mərsiyəyə vagirlik edənlər, sanki bir rahatlıq hiss edir, özlərinə Allahdan çatacaq bir mənəvi mükafat ümidi ilə yaşayırlar" [8, s.113].

II fəslin "İctimai-mədəni problemlər" adlı növbəti yarımbaşlığında "Fövcül-füsəha" üzvlərinin başlığa çıxarılan mövzu ilə bağlı əsərlərini araşdıran müəllif, sonrakı yarımbaşlıqlarda Lənkəran şairlərinin ədəbi irsində əxlaqi-didaktik mövzulu əsərləri və məhəbbət motivli şeirlərini tədqiq edir və belə qənaətə gəlir ki: "Lənkəran şairlərində aşiqanə şeirlər Füzuli ənənələrinin davamı olsa da, bir sıra xüsusiyyətlərinə görə özünəməxsus cəhətlərə də malikdir. Onların qəzəllərində başlıca cəhət realizmə yaxınlıq, həyatilik, vüsala çatmaq üçün cəhdlər aparmaqdır" [3, s.144].

Fəslin son yarımbaşlığı məclis üzvlərinin yaradıcılığında bədii sənətkarlıq məsələlərinə həsr olunmuşdur. Burada bir çox şeirlərin vəzn, bəhr, bədii-təsvir və ifadələr sistemi və s. problemlərə toxunulmuş, irəli sürülən fikirlər konkret misallarla əsaslandırılmışdır.

Mirhaşım Talışlının monoqrafiyasının sonuncu – III fəsli belə adlanır: "Fövcül-füsəha" ədəbi ənənələrinin davamı". Həcm etibarı ilə çox da böyük olmayan bu fəsildə 1920-ci ildən 2000-ci illərə qədərki Lənkəran ədəbi mühiti barədə ümumi məlumat verilmiş, bu zaman kəsiyində yaşamış bir sıra şair və yazıçıların adları qeyd olunmuşdur.

Müəllif monoqrafiyasını iki səhifəlik "Nəticə" ilə ümumiləşdirmiş, sonuna isə 64 addan ibarət ədəbiyyat siyahısı əlavə etmişdir.

Bu monoqrafiya haqqında fikirlərimizi ümumiləşdirsək, belə bir nəticəyə gələ bilərik ki, XIX əsr Lənkəran ədəbi mühitini işıqlandıran, gərgin əmək və səmərəli axtarışların nəticəsi olan bu əsər bu gün də əhəmiyyətini saxlayan mötəbər mənbələrdən biridir.

Klassik ədəbiyyatın, xüsusilə əruz vəznli poeziyanın mahir bilicilərindən olan Mirhaşım Talışlı həm də irfani düşüncələr sahibi olan incə qəlbli şairdir. Professor Yədulla Ağazadənin yazdığı kimi: "Bir təsadüf nəticəsində "Müsafir" təxəllüsünü görkəmli qəzəlxan şair Əliağa Vahiddən alan Mirhaşım müəllimin şeir dünyası olduqca zəngin və çoxcəhətlidir" [2, s.97].

Klassik şeir üslubunda, əruz vəzninin müxtəlif bəhrlərində divan şeiri poetikasının tələblərinə cavab verən şeirlərində M.Talışlı daha çox irfani, dini-fəlsəfi düşüncələrini poetikləşdirir, sadə, aydın və oxunaqlı dillə oxucuları ilə həmsöhbət olmağı bacarır.

*Bizə müəllimi-kamil həyat deyil, bə nədir?*
*Bəşərlə dil-dil ötən kainat deyil, bə nədir?* [2, s.112]

– mətləli qəzəlində bütün bu xəlq olunanları Xaliqin nişanəsi hesab edən şair "Yaxınlaş" rədifli qəzəlində yazır:

*Ey dil, çalış, ömründə bir Allaha yaxınlaş,*
*Birahları tərk elə, həmraha yaxınlaş!*
*Əvvəlcə rəfiq, sonra təriq hökmü yəqindir,*
*Şərdən uzaq ol, Xeyrə, xeyirxaha yaxınlaş*! [2, s.117]

M.Talışlının klassik üslubda müxtəlif mövzularda yazdığı “Məhəmməd Füzuliyə ithaf”, “Lənkəranım”, “Həzi”, “Müasir”, “Füzuliyə təxmis”, “Sabirə təxmis”, “Nəsimiyə təxmis”, “Təxmis-Mərsiyə” və s. əsərləri, “Gəlib”, “Eləmə”, “Olmaz”, “Çəkməz”, “Soruş” və s. rədifli, bəziləri süjetli lirika təsiri bağışlayan qəzəlləri onun estetik idealının parlaq təzahürü olmaqla yanaşı, həm də gözəl sənət nümunələridir.

Nümunə olaraq müəllifin “Üstündədir” rədifli qəzəlinin bəzi beytlərini heç bir şərh olmadan burada veririk:

*Gəldi Məcnunə xəbər ki, Leyli can üstündədir,*
*Tez yetiş cananına, bir əlaman üstündədir.*
*..Sinəsin cırdı, saçın yoldu, yola oldu rəvan,*
*Eylə bil yol getməyir, təxti-rəvan üstündədir.*
*Gəldi dərgahi-rəqibə, duydu “va əfsa” səsin,*
*Bildi solmuş gülləri, artıq xəzan üstündədir.*
*Gəldi qəbrin görməyə etsin ziyarət xakını,*
*Gördü qəbr üstə uşaqlar xoşzənan üstündədir.*
*Sordu onlardan: - Mənə qəbrin deyin cananımın,*
*Dəfn olub Leyli bu gün hansı nişan üstündədir?* [2, s.116]

Professor Y.Ağazadə M.Talışlının heca vəznli şeirlərinin xüsusiyyətlərindən danışarkən yazır: “...Ustad qoşma, gəraylı, təcnis, bayatı şəklində qələmə aldığı şeirlərində müasirlərinin portretini yaratmağa çalışır, Dədə Qorqud sayağı öz rübabını günün, zamanın havasına kökləyir. Bu şeirlərin çoxu ustadnamə səciyyəsi daşıyır, hər misra, hər bənd həyati təcrübədən, dünyaya bələdlikdən, xeyirxahlıqdan, insanpərvərlikdən xəbər verir” [2, s.98].

M.Talışlının “Kitab”, “Dərd nədir”, “Adam var ki..”, “Göz yaşı” və s. bu kimi onlarla şeirləri onun yaşadığı zamanla həmnəfəs olduğunu bildirməklə yanaşı, dövrün problemlərini də öz içində gəzdirdiyinə, problemləri çözmək üçün çarə axtardığına da dəlalət edir.

Müəllifin fəlsəfi lirikasının ən dəyərli nümunələrindən olan “Yeddi söz” adlı bir şeiri onun yaradıcılığı üçün daha xarakterikdir. Bu şeirdə M.Talışlı “həyat” , “məhəbbət”, “sədaqət”, “səadət”, “gözəllik”, “insan”, “ədəbiyyat” kəlmələrini mənalandırmış, əslində öz sənətkar konsepsiyasını əsaslandırmağa çalışmışdır.

Həyatı mövcudluğun, diriliyin əsası, məhəbbəti insanlarda gözlənilən mənəvi dilək, ümidlə nəfəs alan qiymətli varlıq, sədaqəti ürəkləri ürəklərə bağlayan qüvvə, həqiqətin, doğruluğun mənası hesab edən müəllif sədaqəti belə mənalandırır:

*O, bir nazlı, süslü gözəl, incə, dilbər çiçəkdir,*
*Xeyirxahlıq edənlərin bağında bitəcəkdir.*
*Sədaqətli olanların dostu, vəfadarıdır,*
*Hünərlinin, zəhmətsevən insanların yarıdır.* [2, s.130]

Gözəlliyi mövcud varlıqların ən əzəli və ən əfzəli hesab edən müəllif bildirir ki, hər insan cildində olana insan demək olmaz. “Onu-bunu didişdirib təkləyən insan deyil” [2, s.131] – deyən müəllifə görə, insan o şəxsə deyilməlidir ki, o öz qədrini, qiymətini, nifrətini, rəğbətini, əməlini, niyyətini dərk edə bilsin.

## Nəticə / *Conclusion*

Mövzumuzun profili və tədqiqatın həcmi Mirhaşım Talışlının poeziyası haqqında geniş şəkildə danışmağa imkan vermədiyindən bu qısa qeydlərlə kifayətlənməli oluruq.

Mirhaşım Talışlı haqqında fikir və mülahizələrimizi yekunlaşdırarkən belə bir qənaətə gəlirik ki, XX əsrin ikinci yarısındakı Lənkəran ədəbi-ictimai mühitinin ayrılmaz parçası olan bu görkəmli

şəxsiyyətin həyatı və yaradıcılıq yolu ayrıca, müstəqil tədqiqatlar üçün mövzu kimi seçilməli, onun haqqında dissertasiya və monoqrafik tədqiqatlar yazılmaldır.

**Ədəbiyyat / *References***

1. Ağayev, Əjdər. Redaktordan (Yədulla Ağazadənin "Tarixləşən-əbədiləşən ustad" kitabında). – Bakı: Elm və təhsil, 2015.
2. Ağazadə, Yədulla. "Tarixləşən-əbədiləşən" ustad. – Bakı: Elm və təhsil, 2015.
3. Talışlı, Mirhaşım. Əsərləri. I cild. – Bakı: Adiloğlu, 2007.

## Выдающийся представитель Ленкоранской литературной среды 60-90-х годов XX века – Мирхашим Талышлы

**Халида Рагимова**
Диссертант
Ленкоранский Государственный Университет
E-mail: xalidavaqifqizi@mail.ru

**Резюме.** Одной из личностей, оказавших важные услуги в формировании Ленкоранской литературной среды в 60-90-х годах XX века, является Мирхашим Талышлы. Заслуженный педагог, почетный стипендиат Президента Азербайджанской Республики, доктор философии по филологии, доцент Мирхашим был интеллектуалом с энциклопедическим мышлением, прекрасным педагогом, поэтом, учёным, одним из знатоков классической азербайджанской литературы. М.Талышлы, умеющий умело сочетать свою научно-педагогическую деятельность с литературной деятельностью, имеет очень богатое литературно-научное наследие. М. Талышлы, будучи автором ценных научных трудов о многих классических и современных азербайджанских писателях, ценной монографии о Ленкоранской литературной среде XIX века, является автором значительного количества публицистических статей, стихотворений, написанных стихосложением аруз и силлабическим стихосложением, а также книг по истории Ленкорани и его педагогической мысли. Он, прежде всего, литературовед, знающий классическую литературу и достаточно знакомый с прошлой и современной Ленкоранской литературной средой. Обладая глубокими энциклопедическими знаниями, Мирхашим Талышлы посвятил почти шестьдесят лет своей долгой жизни пропаганде просвещения и культуры своего народа, и его светлая память навсегда запечатлена в памяти тех, кто его знал.
**Ключевые слова:** литературная среда, личность, классическое наследие, исследователь, научно-педагогическая деятельность